**KİV XÜLASƏ – 2013**




# Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTAc)



http://azertag.az/xeber/45436

*İQTİSADİYYAT*

# İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu ilə Donetsk Milli Texniki Universiteti arasında əməkdaşlıq memorandumu imzalanmışdır

11.12.2013 [13:08]

Bakı, 11 dekabr (AZƏRTAC).

Ukraynanın Donetsk şəhərində "Müasir cəmiyyətin inkişafının iqtisadi-hüquqi paradiqması" mövzusunda II Beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

AZƏRTAC xəbər verir ki, Donetsk Milli Texniki Universitetinin (DMTU) təşkilatçılığı ilə keçirilmiş tədbirdə İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun əməkdaşları Mətanət Rəsulova və Samirə Abbasova iştirak etmişlər.

Konfransda iqtisadiyyat, hüquq və dəniz nəqliyyatının menecmenti istiqamətləri üzrə 30-dan çox təqdimat dinlənilmişdir.

Konfrans çərçivəsində, həmçinin Donetsk Milli Texniki Universiteti ilə İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanmışdır. İnstitutun əməkdaşları "Yeni iqtisadiyyat" mövzusunda 2014-cü ilin oktyabrında Yaltada keçiriləcək II Beynəlxalq elmi foruma dəvət edilmişlər.

© *Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır*

http://azertag.az/xeber/32758

*İQTİSADİYYAT*

# İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu ilə Türkiyənin Sabancı Universiteti arasında əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilmişdir

16.09.2013 [15:33]

Bakı, 16 sentyabr (AZƏRTAC).

İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda Türkiyənin Sabancı Universitetinin nümayəndələri ilə görüş keçirilmişdir.

AZƏRTAC xəbər verir ki, görüşdə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilmişdir.

© *Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır*

http://azertag.az/xeber/32286

*İQTİSADİYYAT*

# "EcoMod Network" şirkətinin və "AzMod"-un nümayəndələri ilə görüş keçirilmişdir

12.09.2013 [17:18]

Bakı, 12 sentyabr (AZƏRTAC).

İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda "EcoMod Network" şirkətinin nümayəndələri və "AzMod" Ümumitarazlıq Modelinin ekspertləri ilə görüş keçirilmişdir.

Görüşdə Bakıda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin iqtisadi beyin mərkəzlərinin 1-ci Bakı Forumu və "Enerji, regional inteqrasiya və sosial-iqtisadi inkişaf" mövzusunda I Beynəlxalq konfransının nəticələri müzakirə edilmişdir. Həmçinin gələn il keçirilməsi planlaşdırılan növbəti foruma hazırlıq məsələləri, iqtisadi modelləşdirmə üzrə İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu və İƏT-ə üzv ölkələrin müvafiq qurumları arasında əlaqələrin mövcud vəziyyəti nəzərdən keçirilmişdir.

Görüşdə "AzMod" Ümumitarazlıq Modelinin və bu sahədəki mövcud təcrübənin genişləndirilməsinin, İƏT-ə üzv ölkələrin mütəxəssisləri üçün müvafiq təlim keçirilməsinin vacibliyi vurğulanmışdır.

© *Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır*

http://azertag.az/xeber/31276

*İQTİSADİYYAT*

# İqtisadi beyin mərkəzlərinin nümayəndələrinin işçi görüşü keçirilmişdir

04.09.2013 [20:07]

*Bakı, 4 sentyabr (AZƏRTAC).*

Sentyabrın 4-də İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin iqtisadi beyin mərkəzlərinin nümayəndələrinin işçi görüşü keçirilmişdir.

İqtisadi İnkişaf Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirmişlər ki, görüşdə elmi tədqiqatlar üzrə əməkdaşlıq istiqamətlərinə, İƏT-ə üzv ölkələr arasında regional inteqrasiyanın dəstəklənməsinə, beyin mərkəzlərinin daimi əlaqələndirmə şurasının yaradılmasına və digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

Tədbir çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu ilə Pakistan və Qırğızıstanın müvafiq qurumları arasında, o cümlədən Azərbaycan, Qırğızıstan, Qazaxıstan və "EcoMod Networking" şirkəti arasında əməkdaşlığa dair memorandumlar imzalanmışdır.

Sentyabrın 5-də isə Bakı Biznes Mərkəzində İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin İqtisadi Beyin Mərkəzlərinin I Bakı Forumu işə başlayacaqdır. Forum çərçivəsində "Enerji, Regional İnteqrasiya və Sosial -İqtisadi İnkişaf" mövzusunda 1-ci beynəlxalq konfrans keçiriləcəkdir.

*© Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır*

http://azertag.az/xeber/22657

*İQTİSADİYYAT*

# İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu ilə Qırğızıstan-Türkiyə Manas Universiteti arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır

22.05.2013 [17:13]

*Bakı, 22 may (AZƏRTAC).*

İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu və Qırğızıstan-Türkiyə Manas Universiteti arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

AZƏRTAC xəbər verir ki, memorandumda kadr potensialının artırılması, birgə elmi və elmi-texniki tədbirlərin təşkili və tədqiqatların aparılması sahəsində əməkdaşlıq nəzərdə tutulmuşdur.

Sonra Qırğızıstan-Türkiyə Manas Universitetinin rektoru Səlahəddin Balcının iştirakı ilə texniki peşə təhsili sahəsində Türkiyə təcrübəsi mövzusunda seminar keçirilmişdir. Seminarda son 30 ildə texniki peşə təhsili sahəsində Türkiyə təcrübəsi, perspektivlər və çətinliklərdən bəhs edilmiş, beynəlxalq təcrübə müzakirə olunmuşdur.

© *Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır*

http://azertag.az/xeber/22305

*İQTİSADİYYAT*

# İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu və TİKA Bakı Proqram Koordinatorluğu arasında əməkdaşlığın perspektivləri müzakirə edilmişdir

07.05.2013 [13:08]

Bakı, 7 may (AZƏRTAC).

İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı Proqram əlaqələndiricisi Əli Muslunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdə İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu və TİKA Bakı Proqram Koordinatorluğu arasında mövcud və perspektiv əməkdaşlıq əlaqələri müzakirə edilmişdir.

Bildirilmişdir ki, ekoloji təmiz kənd təsərrüfatı sahəsindəki pilot layihənin nəticələrindən biri kimi "Gələcək nəsillər üçün ekoloji təmiz kənd təsərrüfatı" adlı dərs vəsaiti hazırlanmışdır. Bu istiqamətdə işlərin davam etdirilməsi məqsədilə Türkiyənin Ege Universiteti ilə qurulmuş əlaqələrdən bəhs edilmişdir.

Tədbir çərçivəsində qonaqlar TİKA-nın dəstəyi ilə institutda yaradılan videokonfrans otaqlarına baxmışlar.

© *Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır*

http://azertag.az/xeber/22199

*İQTİSADİYYAT*

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə bağlı tədbirlər keçirilmişdir

02.05.2013 [16;27]

Bakı, 2 may (AZƏRTAC).

İqtisadi İnkişaf Nazirliyinin strukturuna daxil olan və tabeliyindəki bir sıra qurumlarında - Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti, Sahibkarlığa Kömək Milli Fondu, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, İstehlak Mallarının Ekspertizası Mərkəzi və Bakı Biznes Tədris Mərkəzində ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilmişdir.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirmişlər ki, əvvəlcə Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilmişdir.

İqtisadi İnkişaf Nazirliyinin strukturuna daxil olan tabeliyindəki qurumlarının rəhbərləri Ümummilli Liderin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri barədə məruzələrlə çıxış etmiş, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin ölkəmizin inkişafı üçün gördüyü misilsiz işlərdən bəhs etmiş, dahi şəxsiyyətin dövlətçiliyimizin möhkəmləndirilməsində, iqtisadiyyatımızın inkişafında əvəzsiz xidmətlərindən danışmışlar.

Çıxış edənlər Ulu Öndərin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanın tərəqqi si, beynəlxalq aləmdə nüfuzunun artması, milli iqtisadiyyatın formalaşdırılması, ölkənin iqtisadi potensialının artırılması və sahibkarlığın inkişafı istiqamətində qazanılmış tarixi nailiyyətlər barədə geniş məlumat vermişlər.

© *Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır*